# Dərbənd Dövlət Dram Teatrı Qəbələdə

Dekabrın 14-də Qəbələ şəhər Mədəniyyət Mərkəzində yenə izdiham vardı. Dağıstan Respublikasının Dərbənd



şəhərində fəaliyyət göstərən Azərbaycan Dövlət Dram Teatrı Qəbələyə dahi bəstəkar Üzeyir Hacıbəyovun məşhur "O olmasın, bu olsun" musiqili komediyası ilə qonaq gəlmişdi. Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Nargilə Qafarova qonaqları tamaşaçılara təqdim etdi. Teatrın direktoru Şahlar Xalıqov Dağıstan Azərbaycan Dram Teatrının yaranma tarixi, hazırki fəaliyyəti barədə məlumat verdi.

Sonra söz teatrın baş rejissoru Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, Dağıstan Respublikasının əməkdar artisti Laləzar Hüseynovaya verildi. Baş rejissor müntəzəm olaraq Azərbaycanda tamaşaçılar qarşısında müvəffəqiyyətlə çıxış etdiklərini bildirdi. Qeyd etdi ki, Azərbaycana bu ilki qastrol səfəri ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunub. Bu qastrol səfərində dahi bəstəkar Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasının seçilməsi təsadüfi deyil.

Bu komediyaya bütün müsəlman şərqində maraqla tamaşa edilir. Komediya bu gün də aktualdır. Elə Üzeyir Hacıbəyovun dahiliyi də bundadır ki, onun yaratdıqları əsərlər mövsümi xarakter daşımır, uzun zaman üçün öz əhəmiyyətini saxlayır. Tamaşaçıların intizarla gözlədiyi an "O olmasın, bu olsun" musiqili komediyasının tamaşası başlandı.

Tamaşaçıların əksəriyyətini bir məsələ düşündürürdü. Kollektiv Üzeyir Hacıbəyovun komediyada qoyduğu mövzunun incəliklərini aça biləcəkmi?

Tamaşanın ilk dəqiqələrindən qonaqlar tamaşaçıların diqqətini səhnəyə yönəldə bildilər. Həm də şit gülüşlərlə yox, bacarıqlı oyunları ilə.

"O olmasın, bu olsun" musiqili komediyası dağıstanlı soydaşlarımızın ifasında olduqca müvəffəqiyyətlə oynanıldı və dəfələrlə tamaşaçıların alqışları ilə qarşılandı.

Dağıstan Respublikasının əməkdar artisti Əlimövsüm Abbasovun ifasında Məşədi İbad, Dağıstan Respublikasının əməkdar mədəniyyət işçisi Yaqut Xandadaşovanın ifasında Sənəm, Dağıstan Respublikasının əməkdar artisti Mahir Məlikovun ifasında hambal rolları xüsusilə yaddaqalan oldu.

Ümumilikdə kollektiv "O olmasın, bu olsun" musiqili komediyasında müəllifin qarşıya qoyduğu məqsədi müvəffəqiyyətlə tamaşaçılara çatdırdı.

Sonda tamaşaçılar kollektivin ifasını uzun sürən alqışlarla və gül-çiçək dəstələri ilə mükafatlandırdılar.

**Qüdrət SƏMƏDOV.**
**Foto S. Umuyevindir.**

# Qəbələ Olimpiya İdman Kompleksində boks yarışları

Azərbaycanın peşəkar boksçusu Fariz Məmmədov IBF və WBO versiyaları üzrə Avropa kəməri uğrunda döyüşdə almaniyalı Matias Pelklə üzüzə gəldi.

Öncə rinqə +91 kq-da mübarizə aparan yerli idmançı Elçin Əhmədovla latviyalı Janis Ginters, Vüsal Əliyev (Azərbaycan) albaniyalı boksçu Armand Qullhayla (72,5 kq) qarşılaşdılar.



Daha sonra Rəşad Kərimov (Azərbaycan) 6 raundluq görüşdə kuba təmsilçisi Migel Velozon (79,8 kq) qarşılaşdılar. Qeyd edək ki, bu qarşılaşmaların hər üçü reytinq xarakterli olmaqla həmyerlilərimiz qələbə qazandılar.

Şou gecəsini izləmək üçün, paytaxtdan Qəbələyə idman ictimaiyyətinin nümayəndələri də gəlmişdilər. Onların arasında gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, ABF-in prezidenti Kəmaləddin Heydərov, «Qəbələ» idman klubunun başçısı Tale Heydərov, AGF-in vitse-prezidenti Elçin Cəfərov, olimpiya çempionları Namiq Abdullayev, Fərid Mansurov və Elnur Məmmədli və digər titullu idmançılar vardı.

+91 kq-da daha bir döyüş baş tutdu. WBCA İnterkontinental kəməri uğrunda mübarizədə Roman Qolovaşçenko (Ukrayna) ilə Yaqub Sağlam (Türkiyə) üz-üzə gəldilər. Bu görüş 12 raunddan ibarət idi.

Fariz Məmmədovla Matias Pelk arasında 12 raundluq döyüş isə, saat 23:30-da start götürdü. Mütəxəssislərin şərhinə görə, bu qarşılaşma Avropa boks ictimaiyyətinin diqqət mərkəzində idi. Boksçumuz arenaya Bayatı-Şiraz muğamının sədası altında daxil oldu. Azərbaycan və Almaniyanın dövlət himnləri səsləndirildikdən sonra, gecənin döyüşü başladı.

Fariz məsələni ilk raundlarda həll etmək üçün, irəli atıldı. Amma rəqibin təcrübəsi onun istəyinin gerçəkləşdirməsinə mane oldu. 4-cü hissədən sonra idmançımız yorulmağa başladı və matç ərzində bir neçə güclü zərbə buraxdı. 8-ci raunda Fariz döyüşdən imtina etdi və almaniyalı boksçu qələbə qazandı.

**Foto S. Umuyevindir.**

# Ağacların kralı palıd

Quşların içində qartala, heyvanların içində şirə, ağacların içində palıda "kral" demək olar. Palıd dedikdə, gözəllik, qüdrət və güc ağıla gəlir. Qədim romalılar palıdı gözəl adlandırıblar. Bu həqiqətən belədir. Palıd ölkəmizdə bitən ən nəhəng ağacdır.

Azərbaycanda 12 növdə palıd bitir ki, bunun da 9 növü yabanı, 3 növü isə mədənidir. Bütün yabanı palıdlar dişli və ya pərli yarpaqlı ağaclardır. Meyvəsi—palıd qozası fincanşəkilli, "papaqlı" qozdur. Palıda Samur-Dəvəçi, Xəzəryanı, Qanıx-Əyriçay, Kür-Araz və Lənkəran ovalıqlarında, Böyük və Kiçik Qafqazın dağlıq rayonlarında, İsmayıllıda, Qəbələdə, Talış dağlarında və Naxçıvanda rast gəlinir. Təzəcə boy atmağa başlayanda palıd zərif və şıltaq olur, şaxtaya, küləyə, isti günəş şüasına tab gətirmir. Elə buna görə də palıd ağacı bir-iki il başqa ağacların və kolların himayəsində boy atır. Sonra isə gücə gəlib, gözəllik və uzunömürlülük rəmzinə çevrilir.

Palıdın hər şeyi insanın xeyrinədir. Qabığını dəmləyib ağız boşluğunda iltihabi proseslər zamanı, mədə-bağırsaq xəstəliklərində, yanıqlar üçün, müxtəlif dəri iltihablarında, əl-ayaq tərləyəndə və bir neçə başqa xəstəliklər zamanı istifadə edirlər. Qızardılmış qozalardan isə kofe hazırlayırlar. Amma palıdın ən böyük sərvəti onun oduncağıdır. O, çox möhkəm və uzunömürlüdür.


## ELAN

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Bum Qəsəbə sakini Aslanov Vəzir Abdulezim oğlunun adına verilmiş 880 F №-li (kodu 17868 A) və 880 A №-li (kodu 17868 B) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.




## Təbrik edirik!

**Əzizimiz Elçin,**

6 yaşın münasibətilə səni təbrik edirik. Sənə həyatda can sağlığı, xoşbəxt olmağı, bol-bol sevinc, valideynlərinin və vətənin başını həmişə ucaltmağı arzulayırıq.

**Atan Əzizağa, anan Həyat və yaxınların.**


# Oxucuların nəzərinə!

# «Qəbələ» qəzetinə

**2014 -cü il üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

*Abunə «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.

Telefonlar: (024)20 5-19-14, 5-15-56, mob. (050) 328-11-42.



Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.